# TƏCİLİ HƏRƏKAT

## HƏBS EDİLMİŞ AKADEMİK QEYRİ ADEKVAT ŞƏRAİTDƏ SAXLANILIR

**Akademik Bəhruz Səmədov yüksək təhlükəsizlikli həbsxanaya köçürüldükdən və bir aydan artıqdır ki, ona təyin olunmuş dərmanlardan məhrum edildikdən sonra əziyyət çəkir. Həbsdə olduğu müddətdə onun psixi və fiziki sağlamlığı əhəmiyyətli dərəcədə pisləşmişdir.**

**HƏRƏKƏTƏ KEÇ: ÖZ SÖZLƏRİNLƏ MƏKTUB YAZ VƏ YA BU NÜMUNƏVİ MƏKTUBDAN İSTİFADƏ ET**

**İlham Əliyev**
Azərbaycan Prezidenti
Azərbaycan Respublikası
Bakı, AZ1066
İstiqlaliyyət küçəsi 19
office@pa.gov.az

*Hörmətli Prezident Əliyev,*

*Mən Sizə tədqiqatçı və sülh fəalı Bəhruz Səmədovun həbsi və onun Umbakı cəzaçəkmə müəssisəsində saxlanma şəraiti ilə bağlı dərin narahatlığımı bildirmək üçün müraciət edirəm.*

*23 iyun 2025-ci il tarixində Səmədov saxta "dövlətə xəyanət" ittihamı ilə 15 il müddətinə azadlıqdan məhrum edilib. Dostlarının və ailəsinin bildirdiyinə görə, son bir ərzində, həbsdə olduğu müddətdə onun psixi və fiziki sağlamlığı pisləşmişdir. O, həbsxanada iki dəfə intihara cəhd etmişdir.*

*2026-cı ilin fevralında Bəhruz Səmədov ağır şəraiti ilə tanınan yüksək təhlükəsizlikli Umbakı cəzaçəkmə müəssisəsinə köçürülüb. Səmədov köçürülmə ilə bağlı apellyasiya şikayətinin rədd edilməsindən sonra aclıq aksiyasına başlayıb. Bu köçürülmə nəticəsində, o, yeganə sağ qalan qohumu olan 83 yaşlı nənəsi Zibeyda Osmanovadan 70 kilometr uzaqlıqda qalıb. Ona hər həftə iki telefon zəngi etməyə icazə verilir. Umbakı həbsxanasında Səmədovun həbsxana həyatına çıxışına ümumiyyətlə icazə verilmir. Ona yalnız gündə iki saata qədər bir metrlik eyvana çıxmağa icazə verilir. Onun televizora baxmağa və ya radioya qulaq asmağa icazəsi əlindən alınıb.*

*Fevralın 27-də vəkilinin xahişi ilə Ədliyyə Nazirliyinin tibbi qrupu Səmədova baş çəkib və bir ona neçə dərman təyin edib, lakin o, bir aydan artıqdır ki, həmin dərmanları ala bilmir. Həkim onu sonuncu dəfə 2026-cı ilin fevral ayının sonunda ziyarət edib. Lakin Səmədovun dərmanlar əldə etmək üçün etirazlarına baxmayaraq, köçürülmədən sonra Ombudsman Aparatının heç bir nümayəndəsi oba baş çəkməyib.*

**Sizi Bəhruz Səmədovu dərhal və qeyd-şərtsiz azad etməyə çağırıram. Onun azadlığa buraxılana qədər lazımi tibbi yardımla təmin olunmasına, beynəlxalq standartlara cavab verən həbsxana şəraitində saxlanmasına, müstəqil müşahidəçilərin və Ombudsmanın Bəhruz Səmədovu ziyarət etməsinə icazə verilməsinə təminat verməyinizi xahiş edirəm. Mən həmçinin Sizi dinc tənqidçilərə, jurnalistlərə və fəallara qarşı geniş miqyaslı repressiyalara son qoymağa çağırıram.**

*Hörmətlə,*

## ƏLAVƏ MƏLUMAT

Praqadakı Karlova Universitetinin doktorantı Bəhruz Səmədov uzun müddətdir ki, Azərbaycanda insan hüquqlarının pozulmasını kəskin tənqid edən və Cənubi Qafqazda sülhün tərəfdarı kimi çıxış edən şəxsdir. 2020-ci ildə "Solçu Azərbaycan gəncliyinin anti-müharibə bəyanatı"nı imzaladıqdan sonra, o, müharibə əleyhinə baxışlarına və sülh çağırışlarına görə Azərbaycan dövlət mediası, ekspertlər və rəsmilər tərəfindən açıq şəkildə "xain" kimi damğalanaraq ləkələnmişdir. O, 2024-cü il avqustun 21-də Praqadan Bakıya gələrkən həbs edilmiş və Cinayət Məcəlləsinin 274-cü maddəsi ilə "dövlətə xəyanət"də ittiham olunmuşdur.

Həbsindən sonrakı iki gün ərzində ailəsi və vəkili onunla əlaqə saxlaya bilməyib. Onun girov müqabilində azadlığa buraxılması barədə vəsatəti rədd edilmiş, müdafiə tərəfinin onun ev dustaqlığına köçürülməsi və istintaq müddətində ailəsi ilə əlaqə saxlamasına icazə verilməsi barədə müraciəti təmin olunmamışdır.

Bəhruz Səmədova qarşı irəli sürülən ittihamlar onun dinc fəallığı, qonşu Ermənistanla dialoq və sülh tərəfdarı olması və Azərbaycanın 2020-2023-cü illər arasında hərbi güclə nəzarətə götürdüyü Dağlıq Qarabağ bölgəsindən etnik erməni əhalisinin çıxarılmasını tənqid etməsi ilə bağlıdır. Onun OC Media, Eurasianet və OpenDemocracy kimi nüfuzlu regional və beynəlxalq nəşrlərdə dərc olunan yazıları, eləcə də sosial media paylaşımları Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla həlli və insan hüquqları barəsində olub.

Bəhruz Səmədova qarşı təqib siyasi xarakter daşıyır və indiyədək heç bir etibarlı sübut ictimaiyyətə təqdim edilməyib. Məhkəmə prosesi faktiki olaraq qapalı qapılar arxasında keçirilib. Hökm oxunarkən məhkəmə zalına yalnız bir neçə nəfər, o cümlədən onun 83 yaşlı nənəsi (ən yaxın sağ qalan qohumu), dostları və bir neçə fəal buraxılıb.

Prokurorun 16 il müddətinə azadlıqdan məhrumetmə cəzası tələbinə cavab olaraq, Bəhruz Səmədov 2025-ci ilin iyun ayında 5 gün müddətində aclıq aksiyası keçirib. Nənəsinin dediyinə görə, o, həbsxanada öz canına qəsd etməyə də cəhd göstərib, lakin kamerada dustaq yoldaşı tərəfindən xilas edilib. O vaxtdan bəri vəkili və yerli fəallar onun psixi və fiziki sağlamlığı ilə bağlı ciddi narahatlıqlarını ifadə ediblər.

Bəhruz Səmədovun və akademik İqbal Əbilovun uydurma ittihamlarla uzunmüddətli həbs cəzasına məhkum edilməsi Azərbaycan hakimiyyətinin akademik tənqidi susdurmaq və siyasi cəhətdən həssas mövzularla məşğul olmaq istəyənlərin qarşısını almaq səylərinin bir qismidir.

**ÜNVAÇININ ÜSTÜNLÜK VERDİYİ DİLLƏR:** azərbaycanca, ingiliscə, rusca
Siz həmçinin öz dilinizdə yaza bilərsiniz.

**XAHİŞ EDİRİK MÜMKÜN OLDUĞU QƏDƏR TEZ FƏAL OLUN -** 30 iyun 2026-a qədər
Əgər müraciətinizi göstərilən tarixdən sonra göndərmək istəyirsinizsə, lütfən ölkənizdəki Amnesty İnternational şöbəsilə əlaqə saxlayın.

**ADI: Bəhruz Səmədov**

**ƏVVƏLKİ TƏCİLİ HƏRƏKƏTƏ LİNK:** Azerbaijan: Further Information: Academics sentenced on spurious charges of treasonurther Update: Academics Sentenced on Spurious Charges of Treason: Bahruz Samadov and Igbal Abilov - Amnesty International